Səbuhi Əhmədov

# Üçtəpə kurqanındakı alban döyüşçüsü

Bakı - 2020

Azərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi
Национальная Академия Наук Азербайджана
Национальный музей истории Азербайджана

***Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyinə həsr olunur***
***Посвящается 100-летию Национального музея истории Азербайджана***

Elmi redaktor:
*akademik Nailə Vəlixanlı*

Научный редактор:
*академик Наиля Велиханлы*

Mətn:
*Səbuhi Əhmədov*

Текст:
*Сабухи Ахмедов*

Dizayn:
*Emil Dadaşov*

Дизайн:
*Эмиль Дадашев*

Kitabda Azərbaycan Respublikasının Mil düzündəki Üçtəpə kurqanında arxeoloji qazıntılar zamanı aşkar olunmuş unikal artefaktlar haqqında məlumat verilir. Əksəriyyəti Milli Azərbaycan Tarixi Muzeyində qorunan bu artefaktlar kurqanda dəfn edilmiş erkən orta əsr Qafqaz Albaniyası döyüşçüsünün türk tayfasından olduğunu sübut edir. Kitab mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

В книге сообщаются сведения об уникальных артефактах, обнаруженных при археологических раскопках на Мильской равнине, в кургане Уч-тепе. На основе артефактов, большая часть которых хранится в Национальном музее истории Азербайджана, доказывается принадлежность похороненного в кургане воина раннесредневековой Кавказской Албании тюркскому племени. Книга предназначена для специалистов и широкого круга читателей.

Mil düzündəki kurqanlar silsiləsi, xüsusən də Üçtəpə dərəsindəki Böyük kurqan ilk dəfə elmi ictimaiyyətə 1956-1960-cı illərdə məlum oldu. Görkəmli sovet alimi Aleksandr Aleksandroviç İyessenin rəhbərlik etdiyi arxeoloji ekspedisiya burada tunc dövrünə aid zəngin materiallar aşkar etdi. Adından da göründüyü kimi, dərədə təpə şəklində, hündürlüyü 12-13 m, diametri 130 m olan üç kurqan vardı. Qazıntılar sübut etdi ki, artıq e.ə. III minillikdə Azərbaycanda varlı və qüdrətli tayfa başçılarının rəhbərlik etdikləri iri tayfa birlikləri olmuşdur.

Lakin çox az adam bilir ki, Böyük kurqanın qazıntıları zamanı onun orta hissəsində silahları və onlara aid ləvazimatı, eləcə də bəzək əşyaları olan kişi sallama qəbri aşkarlanmışdır. Alimlər qəbirdə olan maddi mədəniyyət nümunələrinin VII əsrin I yarısına aid olduğunu müəyyən etdilər. Həmin dövrdə Mil düzü Qafqaz Albaniyası dövlətinin ərazisi idi. Həmçinin alimlər müəyyən etdilər ki, qəbir səliqə ilə hazırlanmış, iç tərəfdən daşla döşənmiş, üst tərəfdən üzərinə taxta şalbanlar qoyulmuşdur. Bu isə sübut



*Üçtəpə dərəsindəki Böyük kurqan. Şəkildə dərəyə öz adını vermiş hər üç kurqan ("üç təpə") görünür. Fotoşəkil arxeoloji qazıntılardan əvvəl çəkilib*

*Большой курган в урочище Уч-тепе. Видны все три кургана, благодаря которым урочище получило свое название. Фотография снята до начала археологических раскопок*



*Böyük kurqandakı sallama qəbrin üstünə döşənmiş şalban qalıqları. Fotoşəkil arxeoloji qazıntılar zamanı çəkilib*

*Остатки бревен, которыми было покрыто впускное погребение в Большом кургане. Фотография снята во время археологических раскопок*

edir ki, vəfat etmiş kişini tələm – tələsik deyil, olduqca təntənəli şəraitdə və müəyyən ayinlər icra olunmaqla dəfn etmişdilər. Alimlərin qənaətinə görə, qəbir yerli sakinə, Qafqaz Albaniyası qoşunları tərkibində olan döyüşçüyə məxsus olub.

Qəbirdə 20-30 yaşlı, türklərə xas cizgiləri, boyu azı 175 sm olan kişi skeleti var idi. Skelet torpaq qəbirdə cənub-qərbdən şimal-şərqə uzadılmış və uzunluğu 1,7 m olan qırmızı parçaya bükülmüşdü. Parçanın uzunluğu, tikilişi, rəngi sübut edir ki, o, döyüşçünün özünün plaş-örtüyü (плащ-накидка) olmuşdur.

Skletin sol ayağının yanında qəmə vardı. Yüksək keyfiyyətli dəmirdən hazırlanmış, palaşın düz dəstə milinin sağ-solundakı çiyinlər ensizdir. Dəstəyin milinə ağac lövhələr taxılmış, onların üzərinə nazik qızıl lövhəçiklər vurulmuşdur. Qının qalıqları əsasında müəyyən edilmişdir ki, qın ağacdan olmuş, üzərinə dəri çəkilmişdir. Palaş üzərində iki asma yerinin olması göstərir ki, silah iki qayış vasitəsilə kəmərdən asılırdı. Silahın sol ayaqın yanında olması onun kəmərdə sol tərəfdə asılmasını təsdiq edir. Tiyənin

uzunluğu 93 sm-dir; deməli palaş atlıya məxsus olmuşdur (piyadanın silahı adətən daha qısa olurdu). Belə silah türkdillli xalqlar, məsələn, erkən orta əsr avarları tərəfindən istifadə edilmiş, oxşar silahlar Cənubi Azərbaycanda, Orta Asiyanın türk areallarında tapılmışdır. Belə ki,silahın dəqiq analoqları Pəncikənd divar rəsmlərindəki türk döyüşçülərinin təsvirində vardır. Türk xalqlarına qarşı aparılan uzun müharibələr ərzində belə silahı sonralar sasani qoşunları da mənimsəmişlər.

Palaşın tiyəsi iki yerdən səliqəli şəkildə, ehtimal ki, bilərəkdən qırılıb. Məlumdur ki, bir sıra xalqlar qəbrə silah qoyarkən onu zədələyirdilər ki, nə silahın özü, nə də onun sahibinin ruhu canlı insanlara xətər yetirməsin.

Skeletin sol qolu yanında dəmir bıçaq vardı. Döyüş bıçağı qında, kəmərdə sol tərəfdə asılaraq, daşınırdı. Qın ağacdan olmuş, üzərinə dəri çəkilmişdi.

Skeletin beli üzərində unikal kəmərin detalları aşkar olunmuşdur. Alimlər müəyyən etmişlər ki, kəmər ensiz dəridən olmuş,





***Böyük kurqandan tapılmış əqiq möhür. MATM***

***Сердоликовая печать из Большого кургана. НМИА***

üzərinə 24 qızıl lövhə, bir qızıl qarmaq, həmçinin üç dəmir halqa bərkidilmişdir. Qızıl lövhələrin gül şəklində olanları dəri üzərinə bərkidilmiş, uzinsov lövhələr isə (“aşıqlar”) dəridən asılmışdır. Məlumdur ki, türk xalqlarında belə bəzəkli kəmər onun sahibinin qəhrəmanlıqlarının salnaməsi, döyüş şöhrətinin əyani nümayişi idi. Bu və ya digər qəhrəmanlıqlar kəmərdə əlavə lövhələrin asılması ilə qeyd edilirdi. Döyüşçü nə qədər çox qəhrəmanlıq edirdisə, bir o qədər çox “aşıqlar” asılırdı. Qeyd etmək lazımdır ki, kəmərin bu forması Azərbaycanda XX əsrin 30-cu illərinədək mövcud olmuşdur.

Skeletin hər qolunun biləyində nazik qızıl burma bilərzik vardı. Bilərziyin oxşar, lakin daha böyük ölçülü forması hər ayağın baldırına da taxılmışdır. Azərbaycanda hələ tunc dövründən başlayaraq əl və ayaq bilərzikləri var-dövləti və hakim təbəqəyə mənsubluğu bildirirdi.




*Azərbaycan Respublikasının Ağcabədi rayonunda Üçtəpə kurqanlarının yerləşməsi sxemi*

*Схема расположения курганов Уч-тепе на территории современного Агджабединского района Азербайджанской Республики*

Skeletin boynuna qızıl nazik burma məftildən boyunbağı salınmışdı. Türk xalqlarında boyun bəzəyi kişinin hakim təbəqəyə mənsub olmasını nümayiş etdirən fərqlənmə nişanı idi.

Döyüşçünün boynunda həmçinin qızıldan çərçivəsi olan əqiq



***Böyük kurqandan tapılmış palaş***

***Палаш из Большого кургана***



***“Furusiya” kolleksiyasına aid palaş. IX-X əsrlər. Ərəb Dünyasının Tədqiqi Institutunun Muzeyi, Paris***

***Палаш из коллекции «Фурусия». IX – X века. Музей Института Арабского мира. Париж***



***Pəncikənd (Özbəkistan) divar rəsmlərində analoji palaş təsvirləri***

***Изображение аналогичных палашей на Пянджикентских росписях***



*Palaş. Qını ağacdan hazırlanıb, üzərinə gümüş lövhə vurulub. Cənubi Azərbaycan, VII əsr. Britaniya Muzeyi*

*Палаш. Ножны изготовлены из дерева и покрыты серебряной пластиной. Южный Азербайджан, VII век. Британский музей.*

möhür də asılmışdı. Möhürün çərçivəsinin məftil halqasının olması, üstəlik möhürün alt çənə sümüyü altında tapılması onun boyunda, ipdən asılmış vəziyyətdə daşınmasından xəbər verir. Maraqlıdır ki, möhürdə olan at arabasında döyüşçü təsviri antik dövrlərə xasdır. Ehtimal ki, bu möhür artıq IV əsrdən məlum olan hakimiyyət rəmzi kimi istifadə olunub.

Skletin sol əlinin çəçələ barmağında üzərində pəhləvi yazısı olan qızıl üzük, ayağında ayaqqabı qalıqları - dəri özül, gümüş halqalar və asılma gümüş lövhələr, kəllə sümüyü üzərində Bizans imperatoru I Yustinin solid qızıl sikəsi aşkar edilmişdir. Sikkə iki yerdən deşilmiş və baş geyiminə tikilmişdir. Papağın qalıqlarına görə onun türk xalqlarında qədim və orta əsrlərdə yayılmış ucu şiş yumşaq dəri papaq olması ehtimal edilmişdir. Papağa qızıl sikkə tikmək adəti onun sahibinin qəhrəmanlığını nümayiş etdirmək ənənəsi ilə bağlı idi. Sonralar Azərbaycanda, xüsusən də Ağqoyunlu və Səfəvi dövlətlərində fərqlənmiş döyüşçüləri papağa

bərkidilən qızıl lövhələr (“cıqqa”, “sorguc”; bəzən lövhələrə tük və ya lələk, əlvan daşlar əlavə olunurdu) taxmaq ənənəsi yayıldı.

Beləliklə, bütün tapıntılar sübut edir ki, qəbir Qafqaz Albaniyası qoşunlarının türk döyüşçüsünə məxsus olmuşdur. Əlbəttə, onun hansı tayfaya aid olmasını dəqiq söyləmək çətindir. Albaniyada albanların, alanların, hunların, göy türklərin, xəzərlərin və başqa türk tayfalarını yaşadığını yazılı mənbələr xəbər verir. bu dövlətin tarixi ərazisində arxeoloji qazıntılar nəticəsində də həmin tayfaların mövcudluğunu sübut edən müxtəlif izlər müəyyən olunub. Sübut edilib ki, bu tayfalar əkinçilik, maldarlıq və sənətkarlıqla bərabər müharibələrdə də fəal iştirak edir, yüksək keyfiyyətli silahların əldə olunmasına böyük diqqət yetirirdilər. Bəzi alimlər hesab edirlər ki, dəfn olunan döyüşçü Albaniyaya köçmüş və burada məskunlaşaraq, yerli qoşunların tərkibində xidmət etmiş qoşunlarında xidmət etmişdir. Digərlərinin fikrincə, döyüşçü etnik alban olub.

Alban döyüşçülərinin silah kompleksinə təkcə qılınc və xəncər deyil, yay-ox, qalxan, dəbilqə və zireh də daxil idi. Üçtəpə kurqanındakı döyüşçü isə yalnız parad silahı və ləvazimatı ilə dəfn olunmuşdur.

Hər halda bütün alimlərin yekdil fikrinə görə döyüş yerli türk nəslindən, yüksək təbəqəyə mənsub olmuşdur. Pəhləvi yazılı möhür, Bizans sikkəsi, qızıl boyunbağı və bilərziklərin olması sübut edir ki, dəfn olunan şəxs çoxsaylı döyüş və hərbi yürüşlərdə iştirak etmiş, hətta döyüşlərdə fərqlənmişdir.

Beləliklə, Üçtəpə kurqanındakı döyüşçü qəbrinin tapıntıları əsasında Qafqaz Albaniyasının erkən orta əsr dövrü döyüşçüsünün parad silah və geyim kompleksini müəyyən etməyə imkan verir.



*Böyük kurqandan tapılmış döyüş bıçağı*

*Боевой нож из Большого кургана*

## Qlossari

**Kurqan** – qəbir üzərində hündür torpaq təpə ilə səciyyələnən dəfn abidəsi növü. Qədim türk dillərində “kurqan, qorqan” sözü “tikili” mənasını verirdi.

**Sallama qəbir** – əvvəlki dövr dəfn abidəsi üzərində qazılmış qəbir.

**Qafqaz Albaniyası** - e.ə. IV – b.e. VIII əsrinin əvvəllərinədək mövcud olmuş güclü Azərbaycan dövləti.

**Palaş** – birağızlı doğrayıcı-batırıcı soyuq silah növü. Palaş düz-tiyəli qılıncdan əyritiyəli qılınca keçid mərhələsi hesab olunur.

**Boyunbağı** – zadəgan nəslinə mənsubluğu bildirən fərqlənmə nişanı. Türk xalqlarında mövcud olmuş, skiflər dövründən başlayaraq Avrasiyada geniş yayılmışdır. Avrasiyanın digər xalqları bu növ boyunbağını türklərdən mənimsədiklərinə görə ona “tork” və ya “torkves” deyirdilər. Sonradan onun əsasında pektoral, daha sonra isə sinə zabit nişanı meydana gəlmişdir.

**Əqiq** – qədim dövrlərdən zərgərlik məmulatlarının hazırlanması məqsədilə istifadə edilən mineral növü. Belə hesab olunurdu ki, əqiq qanaxmanın qarşısını alır, ona görə kişi (döyüşçü) amuletlərinin düzəldilməsində əqiq geniş istifadə edilirdi.

**Pəhləvi yazısı** – III-VII əsrlərdə Sasani dövlətinin bir çox Şərq ölkələrində yayılmış rəsmi yazı növü. Bu yazı növü Qafqaz Albaniyasında da geniş yayılmışdı. Belə yazının bir çox nümunələri Dərbənd qalasının ən qədim hissələrində qalmışdır.

**Solid** (latınca “möhkəm”) – hələ IV əsrdə Roma imperiyasında dövriyyəyə buraxılmış qızıl sikkə. Sonralar bu sikkə Bizans ərazisində elə geniş yayılmışdı ki, avropalılar onu “bezantin” (“bizanslı”) adlandırırdılar. Bu sikkə beynəlxalq ticarətdə geniş istifadə olunduğundan bir çox solid nümunələri Azərbaycan ərazisindəki arxeoloji abidələrdən də aşkar edilmişdir.

**I Yustin** – Bizans dövlətinin 518-527-ci illərində hakimiyyətdə olmuş imperatoru. Tarixdə qardaşı oğlu, gələcəyin məşhur imperatoru I Yustiniana (527-565) tərbiyə verərək, onu hakimiyyətə gətirməsi ilə qalmışdır.

Сабухи Ахмедов

# Албанский воин
# из кургана Уч-тепе

Баку - 2020

Серия курганов и особенно Большой курган в урочище Уч-тепе в Мильской степи впервые стали известны в 1956-1960-х годах, когда археологическая экспедиция под руководством А.А.Иессена раскопала здесь богатые материалы эпохи бронзы. Как видно из названия (Уч-тепе» - «три высоты»), в урочище находились три больших кургана, высотой 12 – 13 м, диаметром 130 м. Раскопки показали, что уже в III тысячелетии до н.э. в Азербайджане имелись крупные племенные объединения, во главе которых стояли богатые и могущественные вожди.

Однако мало кто знает, что при раскопках Большого кургана, в средней части, было обнаружено впускное погребение мужчины с оружием, украшениями и принадлежностями. Ученые определили, что инвентарь могилы относится к первой половине VII века. В это время территория Мильской степи находилась в составе государства Кавказская Албания. Также ученые установили, что могила была тщательно подготовлена, погребение изнутри было тщательно выложено камнем, а сверху - бревнами. Это значит, что умершего мужчину хоронили не второпях, очень торжественно и при соблюдении определенных ритуалов. Таким образом, это погребение местного жителя, воина из состава войск Кавказской Албании.

В погребении лежал скелет мужчины 20-30 лет с характерными чертами тюрка - степняка ростом не менее 175 см. Скелет был вытянут в грунтовой могиле с юго-запада на северо- восток и был обернут в красную материю длиной 1,7 м. Длина, покрой и



***Böyük kurqandan tapılmış boyunbağı (qrivna). MATM***

***Шейная гривна из Большого кургана. НМИА***



*Böyük kurqandan tapılmış gümüş lövhələr, dəmir halqa və ayaqqabı detalları. MATM*

*Серебряные пластинки, железная пряжка и детали обуви из Большого кургана. НМИА*





*Böyük kurqandan tapılmış, üzərində pəhləvi yazısı olan qızıl möhür*

*Золотой перстень с пехлевийской надписью из Большого кургана*



*Böyük kurqandan tapılmış imperator I Yustinin qızıl Bizans sikkəsi. MATM*

*Золотая византийская монета императора Юстина I из Большого кургана. НМИА*



*Böyük kurqandan tapılmış kəmərin hissələri. MATM*

*Детали пояса из Большого кургана. НМИА*



*Böyük kurqandan tapılmış kəmər. MATM*

*Пояс из Большого кургана. НМИА*



*Azərbaycan milli kişi kəməri. XX əsrin əvvəlləri. MATM*

*Мужской азербайджанский национальный пояс. Начало XX века. НМИА*

цвет ткани говорят о том, что это была плащ-накидка самого воина.

Рядом с левой ногой скелета лежал палаш. Палаш был изготовлен из высококачественного железа, имел слабовыделенные плечики по сторонам прямого стрежня рукояти. На стержень рукоятки были надеты деревянные щечки, поддерживаемые двумя накладными обоймицами, покрытых тонкой золотой пластиной. Остатки ножен говорят о том, что они были деревянными, обтянутые кожей. Наличие двух обоймиц на палаше говорит о том, что воин носил оружие подвешенным за два ремешка на поясе. То, что оружие лежало у левой ноги, говорит о том, что его носитель был правшой. Длина клинка 93 см, а это означает, что оружие использовалось всадником (оружие пехотинцев обычно более короткое). Таким оружием пользовались тюркоязычные народы, например, раннесредневековые авары; схожее оружие найдено в Южном Азербайджане, а также тюркоязычных ареалах Средней Азии. Точные аналоги такого оружия изображены и у тюркских воинов с Пянджикентских росписей. В результате длительных



***Böyük kurqandan tapılmış kəmərin hissələri. MATM***

***Детали пояса из Большого кургана. НМИА***

войн с тюркскими народами такое оружие позднее переняли и сасанидские войска.

Клинок палаша в двух местах аккуратно переломан, вероятно, искусственно. Как известно, ряд народов, кладя к умершим оружие, искусственно повреждал его, чтобы душа умершего и его оружия не наносили вреда живым.

Около левой руки скелета лежал железный нож. Нож боевой, носился в отдельных ножнах также подвешенный на поясе слева. Его ножны деревянные, вероятно были обтянуты тонкой кожей.

На тазобедренных костях, там, где талия, лежали остатки уникального поясного набора. Ученые определили, что пояс был кожаным, тонким, на нем были прикреплены 24 золотые пластины, такой же крючок, а также 3 железные пряжки. Поясной набор имел пластины в виде цветков на самом ремне, пластины, свисающие с ремня, а также пряжки и железные обоймицы для подвески палаша и ножа. Как известно, у тюркских народов подобные украшенные пояса были своеобразной летописью боевых подвигов владельца, свидетельством его ратной славы. Те или иные подвиги отмечались подвеской дополнительных пластин. Чем больше подвигов совершал владелец пояса, тем больше пластин было на его поясе. Надо отметить, что такая форма азербайджанского мужского пояса сохранялась вплоть до 30-х годов XX века.

На запястье каждой руки скелета было надето по одному браслету из тонкого золотого витого прута. На голени каждой ноги также имелось по одному браслету из золотого витого прута. В Азербайджане еще с эпохи бронзы ножные и ручные браслеты символизировали знатность и богатство.

На шее скелета была гривна из такого же золотого витого прута. У тюркских народов шейная гривна была знаком отличия, символизировавшая высокое происхождение мужчины.

На шее также была сердоликовая печать в золотой оправе. То, что оправа печати имеет проволочную петельку и сама печать найдена под подбородком, позволяет предположить, что оно



***Böyük kurqandan tapılmış boyunbağı (qrivna), bilərziklər və ayaq halqaları. MATM***

***Шейная гривна, ручные и ножные браслеты из Большого кургана. НМИА***

носилось на шее, подвешенным на веревочке. Интересно, что изображение на печати античное – воин в колеснице. Вероятно, эта печать использовалась как символ власти. Сердоликовые печати как символ власти использовались уже в IV веке.

На мизинце левой руки был золотой перстень с пехлевийской надписью.

На скелете была надета обувь, от которой сохранились кожаная основа, серебряные пряжки и подвесные серебряные пластины.

На черепе скелета лежала золотая монета - солид византийского императора Юстина I. Монета была пробита в двух местах и пришита к головному убору. Остатки его позволили предположить, что она была в виде остроконечной мягкой кожаной шапки, распространенной у тюркоязычных племен древности и средневековья. Обычай пришивать золотую монету к шапке практиковался как элемент показа своих подвигов. Вероятно, воин совершил подвиги во время походов, и ему было дано право носить один из захваченных трофеев на шапке. Позднее в Азербайджане, особенно в

государствах Ак-Коюнлу и Сефевидов, широко практиковалось награждение отличившихся воинов специальными золотыми пластинами (джыгга, соргудж), прикрепляемыми на головной убор (иногда к таким пластинам крепились драгоценные камни, перья редких птиц).

Таким образом, все находки показывают, что погребение принадлежит тюркскому воину государства Кавказская Албания. Конечно, очень трудно сказать, к какому именно племени принадлежал воин. Дело в том, что в Албании проживали тюркоязычные племена албан, аланов, гуннов, сабиров, сарматов, аваров, тюркютов, хазаров и других. В ходе археологических раскопок, на исторической территории государства Кавказская Албания, были обнаружены различные следы пребывания этих племен. Доказано, что эти племена, основным образом жизни которых наряду с земледелием, скотоводством и ремеслами



***Türk döyüşçünün heykəli. Azərbaycanın Şamaxı rayonu Çıraqlı kəndindəki kurqan üzərində aşkar olunub. MATM***

***Статуя тюркского воина. Обнаружена на кургане в селе Чыраглы Шемахинского района Азербайджана. НМИА***

была война, уделяли большое внимание изготовлению и приобретению высококачественного оружия. Некоторые ученые считают, что погребенный воин был воином хазарского племени, который переселился в Албанию и остался здесь жить, вступив в войска Кавказской Албании. Другие полагают, что он принадлежал к албанам. Албанские воины обычно имели на вооружении не только палаш и нож, но и лук и стрелы, щит, шлем, доспех. Воин из кургана Уч-тепе имел лишь парадное оружие и снаряжение.

Однако, несмотря на некоторое разногласие, все ученые согласны в следующем – воин принадлежал к местному тюркскому роду и был воином знатного происхождения. Наличие перстня с пехлевийской надписью, а также византийской монеты, золотой гривны, золотых браслетов говорят о том, что он принимал участие в походах, в военно-политических событиях своей эпохи и даже отличился в боях.

Таким образом, погребение воина из кургана Уч-тепе позволяет узнать комплекс парадной одежды и вооружения знатного воина раннесредневекового периода Кавказской Албании.



*Mil düzü. Müasir foto.*

*Мильская равнина. Современное фото.*

## Глоссарий

**Курган** – вид погребального памятника, характеризующийся сооружением высокой насыпи над могилой. Слово имеет тюркское происхождение – на древнетюркском языке «курган, горган» означает «сооружение».

**Впускное погребение** – погребение, выкопанное на месте погребения более ранней эпохи.

**Кавказская Албания** – мощное азербайджанское государство, существовавшее в IV веке до н.э. – VIII веке н.э.

**Пехлевийское письмо** – Пехлевийское письмо было распространено во многих странах Востока и являлось официальным видом письма Сасанидского государства в III – VII веках. Оно широко использовалось в Кавказской Албании. Особенно много образцов такой надписи сохранилось на старых частях Дербендской крепости.

**Солид** (от латинского слова «твердый») – золотая монета, введенная в обращение еще в IV веке в Римской империи. Позднее эта монета так широко распространилась в Византии, что европейцы называли её «безантин» («византийская»). Монета имела международное хождение, поэтому очень много солидов обнаруживается в археологических памятниках Азербайджана.

**Юстин I** – Император Юстин I правил в Византийской империи в 518 – 527 годах. В истории он остался лишь тем, что воспитал и привел к власти своего племянника, знаменитого императора Юстиниана I (527-565 годы правления).

**Сердолик** – минерал, который с древности использовался как ювелирный материал. Считалось, что сердолик способствует прекращению кровотечения, поэтому сердоликовые камни довольно часто использовались для изготовления мужских амулетов.

**Шейная гривна** – знак отличия, символ происхождения из знатного рода. Гривна была очень распространена у тюркских народов. Со времен скифов она распространилась

по всей Евразии. Народы Евразии, впервые увидевшие такие гривны у тюркских народов, называли их «торк» или «торквес». Позднее на основе гривны появилась пектораль, а еще позднее – нашейный офицерский знак.

## ƏDƏBİYYAT

## ЛИТЕРАТУРА


1. Иессен А.А. Раскопки Большого кургана в урочище Уч-тепе. // Труды Азербайджанской археологической экспедиции, т.II, 1956-1960-е гг. - Москва- Ленинград, 1965.
2. Касумова С.Ю. Азербайджан в III- VII веках. - Баку, 1992.
3. Соловьев А.И. Военное дело коренного населения Западной Сибири (эпоха средневековья.) - Новосибирск, 1987.
4. Беленицкий А.М. Монументальное искусство Пенджикента. - Москва, 1973.
5. Кожомбердиев И.К., Худяков Ю.С. Комплекс вооружения кенкольского воина. // Военное дело древнего населения Северной Азии. - Новосибирск, 1987.
6. Распопова В.И. Металлические изделия раннесредневекового Согда. - Ленинград, 1980.
7. Луконин В.Г. Искусство Древнего Ирана. - Москва,1977.
8. Раджабли А. Нумизматика Азербайджана. - Баку, 1997.
9. Мацкевич А.П. Курган Солоха. - Ленинград, 1980.



*Üçtəpənin Böyük kurqanında dəfn olunmuş alban döyüşçüsünün ehtimal edilən rekonstruksiyası. Ox işarələri ilə skelet üzərində aşkar edilmiş maddi mədəniyyət nümunələrinin olduğu yerlər göstərilib. Rekonstruksiyanın müəllifi – S.Əhmədov*

*Возможная реконструкция облика албанского воина из Большого кургана Уч-тепе. Стрелками указаны места, где на скелете лежали детали одежды, снаряжения и оружия. Автор реконструкции – С.Ахмедов*



*Mil düzündə Üçtəpənin Böyük kurqanından tapılmış alban döyüşçüsü.*
*Rəssam Əjdər Qafarov*

*Албанский воин из Большого кургана Уч-тепе в Мильской степи.*

*Художник - Аждар Гафаров*




*Xəritə. Qafqaz Albaniyası VI- VIII əsrin əvvəllərində*

*Государство Кавказская Албания в VI – начале VIII веков*